## *Bu il*

Bu il yağan yağışların
Damlası bir az da ağır.
Bu il yağan yağışların
Içində göz yaşı yağır.

Bu il vaxtın baxtı kəm,
Bu il əqrəblər yağır.
Zınqırovlu saatlar
Səslənir fağır-fağır.

Torpaq qana susayıb,
Sağır ulu göy, sağır.
Göydən hələ qan yağmır,
Bağır, Karqaya, bağır!

Bu da qırxıncı otaq,
Bu da sevdiyim çığır.
Əlimi vuran kimi
Bütün güllər çığırır.

Bu il yağan yağışların
Damlası bir az da ağır.
Bu il yağan yağışların
Içində göz yaşı yağır.

Astanbəyli M. Bu il : şeir // Ulduz. - 1990. – S. 30.